AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 7 (1454), 22 - 28 sentyabr 2020-ci il

Qəzet 2001-ci ildən çıxır.



## III Avropa Oyunlarında atletlər 24 idman növü üzrə yarışacaq

Polşanın Krakov şəhərində 2023-cü ildə keçiriləcək Avropa Oyunlarının ilkin proqramına 24 idman növü daxil edilib. Oyunlarda kamandan oxatma, sinxron üzgüçülük, badminton, basketbol - 3x3, çimərlik həndbolu, breyk-dans, kanoe (kayak və kanoe, kanoe slalom), velosiped idmanı (BMX, şose), qılıncoynatma, gimnastika, cüdo, karate, müasir beşnövçülük, dağ qaçışı, reqbi-7, atıcılıq, tramplindən tullanma (yay), idman dırmanması, stolüstü tennis, triatlon, voleybol, çimərlik voleybolu, ağırlıqqaldırma idman növləri üzrə yarışlar keçiriləcək.

Qeyd edək ki, birinci Avropa Oyunları 2015-ci ildə Bakıda, ikinci Avropa Oyunları isə ötən il Belarusun paytaxtı Minskdə təşkil edilib. Üçüncü Avropa Oyunlarının isə 2023-cü il iyunun 9-dan 24-dək keçirilməsi nəzərdə tutulub.

## Sərbəst güləş üzrə yığmamıza yeni baş məşqçi təyin edilib

"Dekabrda Serbiyada keçirilməsi nəzərdə tutulan dünya çempionatı baş tutmasa, həmin vaxt 10 güclü güləş ölkəsinin iştirakı ilə turnir keçiriləcək". Bu sözləri Azərbaycan Güləş Federasiyasının prezident əvəzi Namiq Əliyev sentyabrın 21-də təşkil olunan mətbuat konfransında deyib.



N.Əliyev bildirib ki, turnirdə Azərbaycan güləşçilərinin də iştirakı nəzərdə tutulur.

Ölkəmizdə çimərlik güləşinin inkişaf etdirildiyini diqqətə çatdıran Namiq Əliyev bildirib ki, artıq Azərbaycan millisinə baş məşqçi də təyin olunub. Əvvəllər yunan-Roma güləşi ilə məşğul olan Oyan Nəzəriani bundan sonra komandamızı çalışdıracaq. Namiq Abdullayev isə sərbəst güləş üzrə yığmamıza baş məşqçi təyin edilib. Bu təyinatlar ölkəmizdə güləşin inkişafına təkan verəcək.

## *Universiada-2023-ün Atletlər Kəndinin inşası üçün icazələr ilin sonunadək alınacaq*

2023-cü ildə Rusiyanın Yekaterinburq şəhərində keçiriləcək XXXII Ümumdünya Yay Universiadasının Atletlər Kəndinin obyektlərinin inşası üçün icazələr 2020-ci ilin sonunadək alınacaq. Bu barədə TASS informasiya agentliyinə Sverdlovsk vilayətinin İnşaat naziri Mixail Volkov məlumat verib. O qeyd edib ki, ilk obyektlərin dövlət ekspertizasının bütün mərhələləri vaxtında başa çatıb. Bundan əlavə, nazir noyabr və dekabr aylarında 50 min kvadratmetr sahəsi olan Su İdmanı Sarayı və digər obyektlərlə bağlı da rəylərin alınmasının planlaşdırıldığını açıqlayıb.

Universiada-2023-ün beş kompleksdən ibarət olacaq Atletlər Kəndinin ümumi sahəsi 230 min kvadratmetrdən çoxdur.

Qeyd edək ki, XXXI Ümumdünya Yay Universiadası 2021-ci ildə Çinin Çendu şəhərində təşkil olunacaq. Ötən il İtaliyanın Neapol şəhərində keçirilən XXX Yay Universiadasında Azərbaycan milli komandası 2 qızıl, 3 gümüş və 2 bürünc medal qazanaraq, komanda hesabında 18-ci yerdə qərarlaşıb.

## *Milli Olimpiya Komitəsinin maskot müsabiqəsi davam edir*

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) maskot müsabiqəsi davam edir. MOK ölkəmizi tədbirlərdə təmsil edəcək maskotu xalqımızla birlikdə müəyyənləşdirəcək. Öz ideyasına, bacarığına güvənən hər kəs kağızda və ya kompüter proqramlarının köməyi ilə hazırladığı işləri oktyabrın 1-dək mövzuda "Maskot" qeyd etməklə MOK-un e-mail ünvanına (marketing@noc-aze.org) göndərə bilər.

Personaj ideyası seçimində sərhəd yoxdur. Maskot əyləncəli olmaqla yanaşı, özündə Olimpiya elementlərini əks etdirməlidir. İştirakçıların təkliflərini personajın (ideyanı anlatmaq) qısa tanıtımı ilə birlikdə göndərməlidirlər. Müsabiqənin qalibi MOK-da təşkil olunacaq münsiflər heyətinin rəyinə əsasən müəyyənləşdiriləcək. Qaliblər xüsusi medalla təltif ediləcək.

Müsabiqənin qalibi seçiləcək talisman rəsmi şəkildə Azərbaycan Olimpiya Komitəsinin mülkiyyətinə keçəcək.

## *Olimpizm*

### WADA Fransa məhkəməsinin qərarını alqışlayıb

Dünya Antidopinq Agentliyi (WADA) Fransa məhkəməsinin Beynəlxalq Atletika Federasiyaları Assosiasiyasının (IAAF) sabiq prezidenti Lamine Diaka dörd il həbs cəzası verməsi qərarını alqışlayıb. L.Diaka Paris məhkəməsi tərəfindən korrupsiya ittihamı ilə iki ili şərti olmaqla, dörd il həbs cəzası verilib. Bu işdə adı hallanan Ümumrusiya Atletika Federasiyasının keçmiş prezidenti Valentin Balaxniçev isə üç il həbs cəzasına məhkum edilib.

WADA prezidenti Vitold Banka bu qərarı idmançılar və təmiz idman üçün qələbə adlandırıb. O, qeyd edib ki, məhkəmənin qərarı heç kimin qanundan üstün olmadığını göstərir. İdmanla əlaqəli korrupsiyanın dünyanın cinayət mühakimə sistemləri tərəfindən ciddi qəbul edilməsinin ürəkaçan olduğunu bildirən qurumun prezidenti fransız müstəntiqlərinə təqdim edilən bütün faktların təsdiqlənməsindən məmnun olduğunu vurğulayıb.



87 yaşlı L.Diak 1999-cu ildən 2015-ci ilədək quruma rəhbərlik edib. O, aktiv və passiv korrupsiyada, etimaddan sui-istifadədə, cinayətkar dəstənin tərkibində çirkli pulların yuyulmasında ittiham edilib.

## *Anons*

**İlham Zəkiyev:**
"“Qaranlığın rəngləri” filmi həyatımın bütün “rənglərini” özündə əks etdirib" Səh. 3

*Şəhid general Polad Həşimovun adını daşıyan futbol klubu yaradıldı* Səh. 4

**Elnur Amanov:**
"Normal məşqlərimizə geri qayıdacağımız günü səbirsizliklə gözləyirik" Səh. 4

*Bədən tərbiyəsi kadrları hazırlayan ilk tədris ocağı* Səh. 5

Avropadan transfer xəbərləri Səh. 7

## UEFA Super Kuboku

**F i n a l**

**"Bavariya" - "Sevilya"**

(Almaniya) (İspaniya)

*24 sentyabr. "Puşkaş Arena"*
*Macarıstan, Budapeşt*
*Saat 23:00*

## "Azərbaycanın Olimpiya Odisseyası" layihəsi çərçivəsində növbəti onlayn görüş

"Azərbaycanın Olimpiya Odisseyası" layihəsi çərçivəsində növbəti onlayn görüş keçirilib. Tədbirdə XXXI Yay Olimpiadasının bürünc mükafatçısı, üçqat Avropa çempionu, dünya çempionatlarının ikiqat gümüş, Avropa Oyunlarının bürünc medalçısı, "Tərəqqi" medalı ilə təltif edilmiş güləşçi Cəbrayıl Həsənovun idman ictimaiyyətinin nümayəndələri, gənclər və könüllülərlə görüşü olub. Dünya şöhrətli idmançı onlayn görüşdə güləşin çətinlikləri, çempionatlarda üzləşdiyi problemlər, onların həll yolları, eləcə də qazandığı nailiyyətlər və qarşıdakı hədəflərdən bəhs edib. O, rəqiblərinin hazırlığı və onların yığmamızla müqayisəsinə də toxunub.



Daha sonra gənclərin suallarını cavablandıran C.Həsənov onlara tövsiyələrini verib.

Qeyd edək ki, C.Həsənov 2016-cı ildə XXXI Rio-de-Janeyro Yay Olimpiya Oyunlarında qazanılmış yüksək nailiyyətinə və Azərbaycan idmanının inkişafındakı xidmətlərinə görə Prezident İlham Əliyevin Sərəncamına əsasən "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilib.

Onlayn görüş "Könüllülər ili" çərçivəsində Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi, Azərbaycan Məktəb İdmanları Federasiyası, "Azərbaycan İdman Könüllüləri" və "Azərbaycan İdmançıları" İctimai birliklərinin təşkilatçılığı ilə reallaşdırılıb.

## Vitse-prezident Avropa Həndbol Federasiyasının konfransında iştirak edib



Avstriyanın paytaxtı Vyanada Avropa Həndbol Federasiyasının 12-ci konfransı keçirilib. Konfransın gündəliyində duran əsas məsələlərdən biri həndbol yarışlarının indiki şəraitdə keçirilməsi olub. Bundan başqa beynəlxalq yarışların təqvimi müzakirə edilib, eyni zamanda çimərlik həndbolunun gələcək inkişaf perspektivləri istiqamətində fikir mübadiləsi aparılıb. Ölkəmizi konfransda AHF-nin vitse-prezidenti Orxan Abbasov və beynəlxalq əlaqələr şöbəsinin müdiri Ernest Ağakişi təmsil edib.

## *Ümumdünya Güləş Birliyi İcraiyyə Komitəsinin onlayn iclası olub*

Dünya Güləş Birliyinin (UWW) İcraiyyə Komitəsinin növbəti onlayn iclası keçirilib. UWW-nin prezidenti Nenad Laloviçin rəhbərliyi ilə təşkil olunan vebinarda qurumun Büro üzvü, Azərbaycan Güləş Federasiyasının prezident əvəzi Namiq Əliyev də iştirak edib. Dekabrda Serbiyanın paytaxtı Belqradda keçirilməsi nəzərdə tutulan gənclər və böyüklər arasında dünya çempionatlarının təyin olunan vaxtda baş tutub-tutmaması məsələsi açıq qalıb. Bununla bağlı qərar UWW-nin İcraiyyə Komitəsinin növbəti iclasında veriləcək. Belə ki, oktyabrın 5-də baş tutacaq həmin iclasda pandemiyanın inkişaf tempi nəzərə alınacaq və ilin sonuncu mühüm yarışının taleyinə aydınlıq gələcək. Xatırladaq ki, UWW dekabrın 1-dək beynəlxalq yarışların bir qismini təxirə salıb, böyük əksəriyyətini isə ləğv edib. Bunlar arasında U-15 Avropa çempionatı, yeniyetmələr və 23 yaşadək güləşçilər arasında dünya və Avropa çempionatları, eləcə də gənclər arasında qitə birinciliyi də var.



## Qrossmeysterimiz Almaniya Bundesliqasının qalibidir

COVID-19 pandemiyası səbəbindən yarımçıq dayandırılan şahmat üzrə Almaniya Bundesliqası başa çatıb. Uzun fasilədən sonra keçirilən Bundesliqanın son dörd turunun oyunları nəticəsində Azərbaycan yığmasının üzvü Arkadi Naydiçin çıxış etdiyi "Baden-Baden" kollektivi turnirin qalibi olub. Çempionatı üçüncü pillədə bitirən "Verinheym" komandasının heyətində çıxış edən Şəhriyar Məmmədyarov isə son dörd turu yüksək səviyyədə keçirməklə bürünc medala sahib olub.



## Yığma komandalarımızın açıq məşqi olub

Sərbəst və yunan-Roma güləşi üzrə yığmalarımız hazırlıq prosesini davam etdirirlər. Sentyabrın 19-da milli komandalarımızın açıq məşqi olub. Azərbaycan Güləş Federasiyasının stadionunda keçirilən hazırlıq prosesi bir saat davam edib. Dekabrda Serbiyanın paytaxtı Belqradda keçirilməsi nəzərdə tutulan dünya çempionatına, eləcə də gələn il keçiriləcək Olimpiadaya lisenziya xarakteri daşıyan turnirlərə hazırlaşan millilərimiz karantin dövründə də məşqlərə ara verməyiblər. Belə ki, güləşçilərimiz pandemiya ilə əlaqədar ölkədə sərt karantin rejiminin tətbiq olunduğu müddətdə məşqçilərin verdiyi proqrama əsasən, ev şəraitində məşqlər ediblər. Karantin qaydaları yumşaldıqdan sonra kollektiv məşqlər bərpa edilib. Hazırda yığmalarımız açıq havada hazırlıq prosesini plana uyğun olaraq davam etdirir. Azərbaycan Güləş Federasiyası idmançılarımızın yüksək hazırlıq səviyyəsində olması üçün milli komandalara lazım olan şərait yaradıb, maddi-texniki təminat həyata keçirilib.

## *Avropa Stolüstü Tennis Birliyinin yeni prezidenti seçilib*

Rusiya Prezidentinin köməkçisi, Olimpiya Komitəsinin vitse-prezidenti İqor Levitin Avropa Stolüstü Tennis Birliyinin (ETTU) prezidenti seçilib. Bu barədə TASS informasiya agentliyi məlumat yayıb. Koronavirus pandemiyası səbəbindən seçkilər onlayn keçirilib. Bundan əvvəl quruma niderlandlı Ronald Kramer rəhbərlik edib.

## AMADA idmançıları seminara topladı

Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) Təhsil şöbəsinin əməkdaşları Azərbaycan Velosiped İdmanı Federasiyasında idmançılar üçün antidopinq haqqında maarifləndirici seminar keçiriblər. Tədbir zamanı iştirakçılara antidopinq qayda pozuntuları, dopinq nəzarəti prosesi, terapevtik istifadə üçün istisnalar, məkan və digər məsələlər haqqında məlumat verilib.

Daha sonra idmançılar sual-cavab sessiyasında antidopinq sahəsindəki biliklərini yoxlayıblar.

AMADA
STAY CLEAN

## Ağsu ilə uşu üzrə respublika turniri təşkil olunacaq

Sentyabrın 24-27-də Ağsu Olimpiya İdman Kompleksinin stadionunda Aprel döyüşlərində şəhid olmuş Toğrul Fərəczadənin xatirəsinə həsr edilmiş yeniyetmələr və gənclər arasında uşu üzrə respublika turniri keçiriləcək. Ağsu Rayon Gənclər və İdman İdarəsinin və Azərbaycan Uşu Federasiyasının birgə təşkilatçılığı ilə keçiriləcək yarışda 200-dən çox idmançı qüvvəsini sınayacaq. Turnirdə ölkənin şəhər və rayonlarından ümumilikdə 20-dən çox idman klubu iştirak edəcək.

## "Şən startlar" adlı estafet yarışı keçirilib

Uzunmüddətli karantin rejimindən sonra paralimpiyaçı uşaqlar və onları müşayiət edən ailə üzvlərinin iştirakı ilə "Şən startlar" adlı estafet yarışı keçirilib. Sumqayıtdakı Respublika Paralimpiya İdman Kompleksinin stadionunda keçirilən yarış Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi və Milli Paralimpiya Komitəsinin təşkilatçılığı ilə baş tutub. Bu, uşaqlar üçün oyun və eyni zamanda, fiziki hazırlığı göstərmək üçün böyük fürsət olub. Ümumilikdə tədbirə 25 iştirakçı qoşulub. Tədbirdə, həmçinin cüdo, taekvondo idman növləri üzrə uşaq paralimpiyaçıların və karate idman növü üzrə uşaqların nümunəvi çıxışları təqdim olunub. Tədbirdə Sosial Xidmətlər Agentliyinin sədr müavini Faiq Ağayev, Milli Paralimpiya Komitəsinin vitse-prezidentləri İlham Zəkiyev və Yaşar Hacıyev iştirak ediblər. Yarış Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarına riayət edilməsi üçün yaradılmış xüsusi işçi qrupunun nəzarəti altında keçirilib.

## Xüsusi olimpiyaçılar üzgüçülük yarışlarında

Sentyabrın 20-də Xüsusi Olimpiya Komitəsinin təşkilatçılığı ilə xüsusi olimpiyaçılar arasında üzgüçülük üzrə yarış keçirilib. Yarış Bakı Su İdman Sarayında baş tutub. Turnirdə xüsusi, yardımçı internatlar, sosial müəssisə və inklüziv orta məktəblərin məzunlarından ibarət komandalar iştirak ediblər.

Yarışda yekun nəticələrə görə fərqlənən idmançılara mükafatlar təqdim edilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin dəstəyi ilə keçirilən turnir 2021-ci ilin beynəlxalq yarışlarına hazırlıq xarakteri daşıyır.

## *"Neftçi" mərkəzi oyunda "Qarabağ"a qalib gəldi*

Ötən həftəsonu futbol üzrə Azərbaycan Premyer Liqasında üçüncü turun oyunları keçirilib. Turun açılış görüşü Qəbələ şəhər stadionunda təşkil olunub. "Qəbələ" klubu "Keşlə" komandasını qəbul edib. Görüşdə hesab açılmayıb. Matçın 67-ci dəqiqəsində Nikolas Raysel ikinci sarı vərəqəsini alaraq meydandan qovulub.

Günün ikinci görüşü "Kapital Bank Arena"da təşkil olunub. "Sumqayıt" öz meydanında "Səbail" klubunu qəbul edib. Baş hakim Orxan Məmmədovun idarə etdiyi görüş meydan sahiblərinin qələbəsi ilə yekunlaşıb - 2:1. Hesabı 9-cu dəqiqədə "Sumqayıt"ın gənc cinah oyunçusu Süleyman Əhmədov açıb. 21-ci dəqiqədə Rauf Əliyev "Səbail"in bərabərlik qolunu vurub. 32-ci dəqiqədə isə Əli Qurbani oyunda son nöqtəni qoyub.

Turun ikinci oyun günündə də iki görüş təşkil olunub. Əvvəlcə Zirədə bu qəsəbənin eyniadlı komandası "Sabah"ı qəbul edib. Turnir cədvəlində qonşu olan komandaların duelində kimin sevinəcəyi maraq doğurub. Zirə İdman Kompleksinin stadionundakı qarşılaşma qonaq komandanın 2:0 hesablı qələbəsi ilə yekunlaşıb. "Sabah"ın heyətində Xulio Sezar Rodrigez 51-ci dəqiqədə fərqlənib. 90+2-ci dəqiqədə isə Kevin Kubemba fərqi artırıb.



Turun son və mərkəzi görüşündə əzəli rəqiblər - "Qarabağ" və "Neftçi" üz-üzə gəlib. "Azərsun Arena"da keçirilən görüşdə qonaqlar 2:1 hesablı qələbə qazanıblar. Hesabı 10-cu dəqiqədə Ağdam klubunun hücumçusu Kvabena Ovusu açıb. Cəmi 2 dəqiqə sonra "Neftçi" Voislav Stankoviçin qolu ilə tarazlığı bərpa edib. Komandalar fasiləyə bu hesabla yollanıblar - 1:1.

İkinci hissədə "ağ-qaralar" daha bir qol vurublar. Oyunun 68-ci dəqiqəsində Namiq Ələsgərov qapıçı ilə dueldən qalib ayrılaraq topu boş qapıya göndərib - 1:2.

3 turdan sonra aktivində 6 xalı olan "Sabah", "Sumqayıt" və "Neftçi" komandaları turnir cədvəlində müvafiq olaraq, ilk üç yeri bölüşdürürlər. Qəbələ səfərində qolsuz heç-heçəyə nail olan "Keşlə" 5 xalla dördüncü pillədə yer alıb. Son çempion "Qarabağ" isə 4 xalla beşincidir. "Zirə" "Qəbələ" və "Səbail" isə turnir cədvəlinin son pillələrində qərarlaşıblar.

**Bizim müsahibə**

# İlham Zəkiyev:

## ““Qaranlığın rəngləri” filmi həyatımın bütün “rənglərini” özündə əks etdirib”

*Bu yaxınlarda Əməkdar idman ustası, ikiqat Paralimpiya və dünya, yeddiqat Avropa çempionu, Qarabağ müharibəsi veteranı İlham Zəkiyev haqqında sənədli film çəkilib. Film Azərbaycan Televiziyasının Bədii və Sənədli Filmlər Studiyası tərəfindən ərsəyə gətirilib. Qarabağ müharibəsində sağlamlığını itirmiş idmançının həyat yolundan bəhs edən “Qaranlığın rəngləri” filmi həm də dünya işığından məhrum olmuş insanın daxili iradəsinin gücünü əks etdirir. Filmin süjet xətti qəhrəmanın daxili monoloqu üzərində qurulub. Bu yaxınlarda filmin qəhrəmanı olan İlham Zəkiyevlə əlaqə saxlayıb həm film, həm karantin vaxtı gördüyü işlərdən, həm də Tokio-2020 Yay Paralimpiya Oyunlarına hazırlıq prosesi barədə məlumat əldə etdik.*

*İlham müəllim həmişə olduğu kimi, bu dəfə də ona ünvanlanan sualları səmimi cavablandırdı.*



***- İlham müəllim, bu yaxınlarda sizin haqqınızda Azərbaycan Televiziyasının Bədii və Sənədli Filmlər Studiyası tərəfindən “Qaranlığın rəngləri” adlı sənədli film çəkildi. Film sizin yaradıcılığınızı tam olaraq əks etdirə bildimi?***

- Qeyd etdiyiniz kimi, film Azərbaycan Televiziyası tərəfindən çəkilib. Doğrudan da bu ekran işinin ərsəyə gəlməsində çox peşəkar insanlar məşğul oldular. Filmin xronometrajı 42 dəqiqə olsa da, hər kəsin xoşuna gəldi. Təbii ki, mən də bu filmi çox bəyəndim. Filmi izləyənlərin yeganə sualı ancaq bu idi ki, “filmin xronometrajı niyə belə az oldu?”. Filmdə çox incə məqamlara toxunulub. Qeyd edim ki, filmin çəkilişləri bir ildən artıq idi ki, başlamışdı. Amma həm pandemiya, həm də təlim-məşq toplanışında topuğumdan aldığım zədəyə görə çəkilişlər dayanmışdı. Lakin ataların da dediyi kimi, “gec olar, güc olar”. Gec olsa da, çox gözəl film alındı. Filmin ərsəyə gəlməsində əməyi olan hər kəsə minnətdarlığımı bildirirəm. Mənim haqqımda bir neçə sənədli film çəkilib. Amma bu filmdə hadisələr bir qədər fərqlidir. Bir sözlə “Qaranlığın rəngləri” filmi həyatımın bütün “rənglərini” özündə əks etdirib.



***- Sənədli film olduğu üçün yaxınlarınızdan, dostlarınızdan, hətta rəqiblərinizdən sizin haqqınızda maraqlı fikirlər alınıb. Yəqin ki, rəqiblərinizin sizin haqqınızda nələr düşünməsi və nələr danışması maraqlı oldu?***

- Filmdə İlham Zəkiyev tək idmançı kimi deyil, eyni zamanda bir valideyn, dost, hətta rəqib kimi təsvir olunub. Müəlliflər mənim rusiyalı rəqibimi taparaq, ondan müsahibə götürüblər. Burada cüdo üzrə Paralimpiya çempionu Oleq Kretsul da mənim haqqımda xoş sözlər deyib. Təbii ki, hər bir idmançı üçün rəqiblərinin onun haqqında nə danışması çox maraqlıdır. Onların haqqımda səsləndirdiyi fikirlər mənim üçün də həm maraqlı, həm də xoş oldu. Ümumiyyətlə, biz tatamidə rəqib olsaq da, kənarda dostuq. Heç biri ilə şəxsi ədavətim yoxdur.

***- Qeyd etdiniz ki, topuğunuzdan zədə almısınız. Bu zədəni bərpa edə bilmisinizmi?***

- Bəli, həmin zədəni bərpa etdim. Amma hazırda dirsəyimdən yeni zədə almışam. Peşəkar idmanda zədələr qaçılmazdır. Bu zədə ilə bağlı müalicə alıram. İnşallah, yaxın günlərdə əməliyyat olunmaq üçün Türkiyəyə yola düşəcəyəm. Düşünürəm ki, pandemiyaya görə yaranmış fasilədən istifadə edərək əməliyyat olunub, yarışlara qədər formamı tam bərpa edim.

***- Bir müddət əvvəl Azərbaycan Milli Antidopinq Agentliyinin (AMADA) İdmançılar Məsləhətçi Komissiyasının sədri vəzifəsinə seçildiniz. İstərdik bir qədər də buradakı fəaliyyətiniz barədə məlumat verəsiniz.***

- Qeyd etdiyiniz kimi AMADA-nın İdmançılar Məsləhətçi Komissiyasının sədr və sədr müavini vəzfəsinə seçkilər keçirildi. Təbii ki, idmançıların hüquqlarının daha effektiv müdafiəsi və təmiz idmanın təşviqi baxımından komissiyanın aktiv fəaliyyəti olduqca vacibdir. Bunun üçün İdmançılar Məsləhətçi Komissiyasının əsasnaməsinə uyğun olaraq komissiyaya sədr və sədr müavini seçildi. Komissiya üzvləri tərəfindən sədrlik üçün mənim namizədliyim irəli sürülmüşdü. Açıq səsvermə qaydasında keçirilən seçkidə komissiya üzvlərinin yekdil rəyi ilə İdmançılar Məsləhətçi Komissiyasının sədri seçildim. Təmiz idmanın qorunması baxımından antidopinq sahəsində idmançıların öz hüquq və vəzifələrini bilməsi, habelə maarifləndirmə işlərində idmançıların aktiv iştirak etməsi vacibdir. Burada əsas fəaliyyətimizdən irəli gələrək federasiyalarla, komandalarla, idmançılarla maarifləndirici söhbətlər aparılacaq. Mən hər zaman üzərimə düşən işin məsuliyyətini yaxşı dərk edirəm. Çalışacağam ki, burada da mənə göstərilən etimadı layiqincə doğruldum.

***- Siz həmçinin Azərbaycan Milli Paralimpiya Komitəsinin vitse-prezidenti vəzifəsində də çalışırsınız. Maraqlıdır, idmançı karyeranızla yanaşı, bu qədər işin öhdəsindən necə gəlirsiniz?***

- 2017-ci ildən Azərbaycan Milli Paralimpiya Komitəsinin vitse-prezidenti vəzifəsində çalışıram. Təbii ki, bu mənim məsuliyyətimi bir qədər də artırır. Amma qeyd etdiyim kimi, hər zaman çalışmışam ki, mənə həvalə olunan işi layiqincə doğruldum. Mən işimi sevirəm, gördüyüm işdən zövq alıram. Heç kim öz sevdiyi işdəki çətinlikdən qorxmamalıdır. Bu, bizim məşqlərimizə mane olmur. Öz üzərimizə düşən işimizi görürük. Çətin olsa da, çalışıram ki, öz üzərimə düşən işin öhdəsindən layiqincə gəlim. Ötən müddət ərzində bir sıra dəyişikliklər olub. 2013-cü ildə ölkəmizdə Uşaq Paralimpiya Komitəsi yarandı. Burada məqsəd odur ki, İlham Zəkiyev sabah karyerasını bitirdikdən sonra onu əvəzləyə biləcək idmançılar olsun. Uşaqlar cəmiyyətin ayrılmaz hissəsidirlər. Əlillikdən heç kəs sığortalanmayıb. Onlar cəmiyyətə inteqrasiya edilməlidirlər.

***- İlham müəllim, bu gün ölkəmiz dünyanı cənginə alan koronavirus pandemiyasına qarşı mübarizə aparır. Bunun üçün karantin rejimi tətbiq olundu. Siz bir idmançı kimi, karantini necə keçirdiniz?***

- Bildiyiniz kimi yığma komandanın üzvləri ilin 12 ayını təlim-məşq toplanışlarında və yarışlarda olurlar. Bunun üçün də ailələrinə o qədər də çox vaxt ayıra bilmirlər. Mən karantin rejimindən istifadə edib ailələmlə, övladlarımla daha çox vaxt keçirdim. Yəni karantinin mənfi cəhətləri ilə yanaşı, belə müsbət tərəfləri də oldu.




***- Bir müddətdir ki, açıq havada məşqlərin keçirilməsinə icazə verilib. Bu məşqlər sizin formada qalmağınıza necə təsir edir?***

- Karantin rejiminə görə məşqlərimizi bir müddət ev şəraitində davam etdirdik. Bu yolla formada qalmağa çalışırdıq. Evdə qalsaq da, idmandan kənar qalmırdıq. Düzdür bu bizə müəyyən qədər çətin oldu. Amma əsas odur ki, fiziki hazırlıq səviyyəmizi müəyyən qədər qoruyub saxlayaq. Artıq bir müddətdir ki, açıq havada məşqlərin keçirilməsinə icazə verilib. Düzdür, açıq havada keçirilən məşqlər formamızı tam qorumaq üçün kifayət etmir. Amma neyləmək olar, bu, tamamilə məşqsiz qalmaqdan daha yaxşıdır. Ən azından bədəndəki tonusu saxlamaq olur. Səbirsizliklə gözləyirik ki, pandemiya və karantin rejimi başa çatsın, biz də normal həyatımıza qayıdaq, məşqlərimizi bərpa edək, yarışlarımıza hazırlaşaq.

***- Tokio-2020 Yay Olimpiya və Paralimpiya Oyunlarının vaxtının dəyişdirilməsi qərarını necə qarşıladınız?***

- Koronavirus pandemiyası hər bir sahəyə toxunduğu kimi, idman sahəsindən də təsirsiz ötüşmədi. Bildiyiniz kimi bu il Yaponiyanın paytaxtı Tokio Olimpiya və Paralimpiya Oyunlarına ev sahibliyi etməli idi. Lakin pandemiyaya görə ilin ən mötəbər yarışları, eləcə də Tokio-2020 təxirə salındı. Olimpiadanın gələn ilə təxirə salınması kimisi üçün pis xəbər, kimisi üçün isə yaxşı xəbər oldu. Çünki bir sıra idmançılar var ki, zədəsinə görə bu il Olimpiya Oyunlarını buraxa bilərdilər. Biz də bu qərarı olduğu kimi qəbul etdik. Düşünürəm ki, bu doğru qərar idi. Çünki pandemiyaya görə karantin rejimi tətbiq olundu və ölkəmizdə bütün idman zalları bağlandı. Bu isə yarışlara yüksək səviyyədə hazırlaşmağımıza mane oldu. Əgər Tokio Olimpiya və Paralimpiya Oyunlarının vaxtı dəyişməsəydi, biz pik formamızı yığmadan Tokioya yollanacaqdıq. Evdə məşq etməklə isə olimpiadada uğurlu nəticəyə bel bağlamaq olmaz. Tək biz yox, bütün ölkələrdə vəziyyət belədir. İdmançılar hazırlaşıb, özlərini yaxşı tərəfdən göstərə bilməyəcəkdilər. Tokio-2020-nin vaxtının dəyişdirilməsi isə bizim üçün bir qədər yaxşı fürsət oldu. Bundan əlavə Düsseldorfda, beynəlxalq təlim-məşq toplanışında olanda topuğumdan zədə aldım. Həmin vaxtı təəssüfləndim ki, Paralimpiya Oyunlarına az vaxt qalıb və mən Tokio-2020-yə qədər zədəmi bərpa edə bilməyəcəyəm. Bunun üçün də Olimpadanın vaxtının dəyişdirilməsi mənim üçün bir qədər xoş xəbər oldu. Çünki gələn ilə qədər zədəmi sağaltmağa və formamı bərpa etməyə kifayət qədər vaxtım olacaq.



***- Amma gələn il sizin 41 yaşınız olacaq. Bu, sizin Paralimpiya Oyunlarındakı çıxışınıza necə təsir göstərəcək?***

- Mən burada böyük problem görmürəm. Hazırlaşacağıq, təki ciddi zədəmiz olmasın.

***- İstərdik bir qədər də paracüdo üzrə komandamızın gələn il Tokioda keçiriləcək Paralimpiya Oyunlarına lisenziya şansları barədə məlumat verəsiniz.***

- Qarşıda kifayət qədər vaxtımız var. İdmançılar məşqlərini tam olaraq bərpa etdikdən sonra lazımi formaları yığıb, lisenziya qazanaraq Paralimpiya Oyunlarında Azərbaycanı yüksək səviyyədə təmsil edəcəklər. Bildiyiniz kimi, Azərbaycanın kişilərdən və qadınlardan ibarət komandası Paralimpiya Oyunlarında böyük nailiyyətlər əldə edib. Tokiodakı Paralimpiya Oyunlarının da komandamız üçün uğurlu olacağına inanıram. Bunun üçün isə qarşıdakı lisenziya yarışlarında uğurla çıxış etmək lazımdır. Komandamızın şansı yüksəkdir. Çalışacağıq ki, bu Oyunlarda tam heyətlə ölkəmizi təmsil edək və yükək nəticələr qazanaq.

***- Qarşıda komandamızı hansı yarışlar gözləyir?***

- Əgər hər şey qaydasında olarsa, noyabr ayında Bakıda paracüdo üzrə Dünya kuboku təşkil olunacaq. Artıq 20-ə yaxın ölkə də bu yarışda iştirak etmək üçün sifarişini verib. Əgər epidemioloji vəziyyət yaxşı olarsa, bu yarış təşkil olunacaq. Hələ yarışa müəyyən qədər vaxt var. Digər əsas iki yarışımız isə gələn ilə təsadüf edir. Bunlar aprel ayında İngiltərədə, may ayında isə Bakıda təşkil olunacaq Qran-pri yarışlarıdır. Hər iki yarış Tokioda təşkil olunacaq Paralimpiya Oyunları üçün lisenziya xalları verəcək. Buna görə də bu yarışların əhəmiyyəti olduqca böyükdür.

***- Rio-2016 Yay Paralimpiya Oyunlarında sizin rəqiblərinizin əslində belə demək olarsa, olimpiyaçılar idi. Hətta sizin çəkidə çempion olan Özbəkistan təmsilçisinin görməsində ciddi problemi yox idi. Necə düşünürsünüz növbəti olimpiadadan B1, B2, B3 kateqoriyalarında olan idmançıların yarışı ayrı olacaq?***

- Həmin olimpiadada iştirak edən Özbəkistan təmsilçisi Rio-2016-ya qədər sağlam cüdoçular arasında çıxış edib. Adilcan Tuledibayevin paracüdo kateqoriyası B3-dü ki, bu da 40 faizədək görmə deməkdir. Bürünc medal uğrunda mübarizənin ilk iki mərhələsində qarşılaşdığım rəqiblər də bu kateqoriyadan idi. Sonuncu kubalı rəqib isə B2-də (20 faizədək görmə) yer alırdı. Mən isə B1, yəni tam görmə qabiliyyətini itirmiş cüdoçuların kateqoriyasındayam. Beynəlxalq Cüdo Federasiyası ilə bu kateqoriyaların ayrılması barədə danışıqlar aparılır. Başqa idman növlərində bu kateqoriyaların yarışı ayrılıb. Bunlara misal olaraq atletika, üzgüçülük və digər idman növlərini göstərmək olar. Amma paracüdoda B1, B2, B3 kateqoriyalarında olan idmançıların hamısı bir yerdə güləşir. Bu məsələ hazırda müzakirə olunur. Yəqin ki, hər şey yaxşı olarsa növbəti Paralimpiya Oyunlarına qədər bu məsələ öz həllini tapacaq.

***Azər Əlizadə***

Taekvondo

## Elnur Amanov:

## “Normal məşqlərimizə geri qayıdacağımız günü səbirsizliklə gözləyirik”

Taekvondo üzrə yığma komandanın məşqçisi, qadınlardan ibarət milli komandanın baş məşqçisi Elnur Amanov “Olimpiya dünyası” qəzetinə müsahibə verib. Təcrübəli mütəxəssis taekvondo üzrə yığmamızın açıq havada keçirilən məşqlərindən, komandamızın hazırki vəziyyətindən və bir sıra məsələlərdən danışdı. Həmin müsahibəni oxucularımıza təqdim edirik.



***- Elnur müəllim, açıq havada məşqlərə icazə verildikdən sonra Azərbaycanın Olimpiya idman növləri üzrə bəzi milli komandaları artıq hazırlığa başlayıblar. Taekvondo Federasiyasında vəziyyət necədir?***

- Biz də digər federasiyalar kimi, karantin rejiminin yumşaldılmasından sonra açıq havada yüngül məşqlərə başlamışıq. Məşqlərimizi əsasən, Heydər Əliyev Mərkəzinin ərazisində qaydalar çərçivəsində keçirik. Bu məşqlər əsasən idmançıların formadan tam düşməməsi üçündür. Məşqlər əsasən qaçış və müəyyən idman hərəkətlərindən ibarətdir. Təbii ki, belə bir məşq prosesi ilə idmançı öz gücünü, fiziki hazırlığını tam şəkildə qoruya bilməz. Bunun üçün onlara fiziki, taktiki və texniki hazırlıqlar lazımdır.

***- Aydın məsələdir ki, idman zallarındakı məşqlərlə açıq havadakı məşqlərin effekti eyni olmur. Bu baxımdan yığma komandanın məşqçisi kimi açıq havada keçirilən məşqlərin əhəmiyyətini necə qiymətləndirirsiniz?***

- Düzünü desəm, açıq havada məşq etmək peşəkar idmançı üçün çətindir. İdmançıların paltarlarını dəyişməyə yeri olmur və onlar məşqdən sonra yuyuna bilmirlər. Bu da peşkar idmançı və yığma komanda üçün bir az çətinlik yaradır. Bundan əlavə idman zallarında lazımi məşq avadanlıqları var ki, idmançılar onlardan istifadə edirlər. Açıq havada isə bu şəraiti qurmaq o qədər də mümkün deyil. Ümid edirik ki, tezliklə idman zalları açılacaq və idmançılar normal məşqlərinə geri dönəcəklər. Hələ ki, karantin rejiminin daha da yumşaldılmasını və normal məşqlərimizə geri qayıdacağımız günü səbirsizliklə gözləyirik.

***- Yığma komandanın əsas üzvləri necə, məşqlərdə iştirak edirlər?***

- Komandamızın üzvlərindən yarıdan çoxu bizimlə məşq etmir. Millinin əsas aparıcı simaları sayılan Milad Beigi Herçəqani, Radik İsayev və digər idmançılarımız Azərbaycanda deyil. Onlar öz ölkələrindədirlər. Bəzi idmançılar isə rayondadırlar.

***- Komandamız üçün ən yaxın yarışın tarixi nə vaxtdır?***

- İlin sonunadək taekvondoçularımızı heç bir yarış gözləmir. Bir müddət əvvəl Dünya Taekvondo Federasiyasının onlayn iclası oldu. Beynəlxalq qurumdan ölkələrin federasiyalarına bildirilib ki, gələn ilin əvvəlindən turnirlərin keçirilməsi gözlənilir. Təqvimdə yeganə yarış kimi, dekabr ayında Çində keçirilməsi gözlənilən Böyük Dəbilqə turniri qalmışdı ki, o da ləğv olunub. Yəni bu il taekvondoçularımız heç bir yarışda iştirak etməyəcək. Məşqlər tam şəkildə bərpa olunduqdan sonra gələn ilin ilk yarışına kimi idmançılarımız öz fiziki hazırlıqlarını bərpa edə biləcəklər.

***- Elnur müəllim, hər il gənclərdən ibarət yığma komandadan əsas komandaya yetərincə istedadlı idmançılar cəlb olunur. Bəs, pandemiya şəraitində bu proses necə tənzimlənəcək? həmin idmançıların aqibəti necə olacaq?***

- Bu il gənclərdən ibarət yığma komandamızın heyətində çox istedadlı idmançılar var idi. Məşqçilər heyəti həqiqətən də onlardan yüksək nəticələr gözləyirdi. Bildiyiniz kimi, pandemiya ilə əlaqədar olaraq Bolqarıstanda keçirilməsi gözlənilən gənclər arasında dünya birinciliyi təxirə salındı. Bu yarış gənclərdən ibarət yığma komandanın heyətində sonuncu ili olan idmançılar və onların məşqçiləri üçün çox əhəmiyyətli idi. Nə demək olar. Çox təəssüfləndirici bir haldır. Çünki o, gənclərin arasında bu il dünya çempionu və mükafatçısı ola biləcək idmançılar var idi. Amma bu bir qismətdir. Təbii ki, nə olursa-olsun, ruhdan düşmək olmaz. Həmin idmançıların karyeraları hələ qarşıdadır. Mən bir məşqçi kimi həmin gənclərə səbrli, dözümlü və iradəli olmağı tövsiyə edirəm.

***- Sizcə, bir neçə ay ərzində ev şəraitində məşq etmək idmançıların hazırlıq səviyyəsinə nə dərəcədə təsir göstərdi?***

- Peşəkar idmançı üçün evdə oturmaq və evdə məşq etmək təbii ki, çox çətindir. Həm bədənin forması, həm də artıq çəki baxımdan problem yaranacaq. Düzdür, bəziləri buna peşəkar yanaşıb, öz çəkisini qoruya bildi. İdmançı üçün çəkinin 3-4 kq artıq olması o qədər də problem deyil. Komandanın həkimi də idmançılarla əlaqə saxlayır, onlara bu barədə zəruri məsləhətlərini verir.

*Azər Əlizadə*



## Şəhid general Polad Həşimovun adını daşıyan futbol klubu yaradıldı

Bu günlərdə Qəbələdə yeni futbol klubu yaradılıb. Klub iyulun ortalarında Tovuz istiqamətində gedən döyüşlərdə həlak olan general-mayor Polad Həşimovun adını daşıyır. “Həşimov” adlandırılan komanda Qəbələdə məşqlərini davam etdirir. “Həşimov” klubunun rəhbəri Cavad Şərifli klubun yaradılması haqda bunları deyib: “Hər il Qəbələdə keçirilən ənənəvi futzal turnirində biz də öz komandamızla iştirak etmək istədik. Vəndam qəsəbəsində bir qrup futbolsevərlə birlikdə şəhid Polad Həşimovun adını daşıyan klub yaratdıq. Hərbdə hərbçilər soyadla çağrılır, ona görə biz də klubun adını “Həşimov” qoymaq qərarına gəldik. Bəzi futbolsevərlər maddi kömək etdilər, çünki komandamızın oyun geyimləri, qəsəbədən stadiona getmək üçün minik vasitələri, liqada iştirak etmək üçün vəsait və digər məsələlər üçün xərclər lazım olur. Gələcəkdə sponsor tapılsa, komandamızı böyütməyi planlaşdırırıq. Vəndam qəsəbəsinin bələdiyyə sədri, qəsəbədən olan iş adamı və həkim bizə dəstək olub. Onlara minnətdarlığımızı bildiririk. Komandanın baş məşqçisi Rəvan Rəcəbovdu, kapitan isə Rasim Firidunludu. Hələ ki “Qəbələ”nin stadionlarında məşq edirik. Mən də klub rəhbəri kimi bu adın məsuliyyətini dərk edib, oyunlarda nümunəvi çıxış edərək, uğurlu nəticələr qazanacağımıza inanıram”.



## Voleybolçumuz Macarıstan klubu ilə müqavilə imzaladı

Qadın voleybolçulardan ibarət Azərbaycan millisinin üzvü Anastasiya Bessonova karyerasını Macarıstanda davam etdirəcək. 21 yaşlı voleybolçu “Bekeşçaba” klubu ilə bir illik müqavilə imzalayıb. Qeyd edək ki, voleybolçumuz iki ay əvvəl “Azərreyl”lə müqavilə imzalamışdı. Lakin avrokuboklarda oynamaqdan imtina edən Bakı klubu əksər oyunçuları ilə yollarını ayırmaq məcburiyyətində qalıb. Təmsilçimizlə anlaşmasını qarşılıqlı razılaşma ilə pozduqdan sonra voleybolçu Macarıstan variantına üstünlük verib.

## Millimizin keçmiş voleybolçusu Yunanıstan komandasında

Qadın voleybolçulardan ibarət Azərbaycan milli komandasının sabiq üzvü Yekaterina Jidkovanın yeni klubu müəyyənləşib. 2019-cu ilin sonunda Türkiyənin “Nilüfer Belediyespor” komandası ilə yollarını ayıran 30 yaşlı hücumçu karyerasını Yunanıstanda davam etdirəcək. Voleybolçu AEK klubu ilə anlaşıb.



Qeyd edək ki, ötən mövsüm aşağı liqanın çempionu olan AEK yenidən qayıtdığı yüksək dəstədə ilk oyununu oktyabrın 10-da keçirəcək.

## “Vüqar Həşimovun dostları” komandası klublararası turnirin qalibi oldu

Klublararası turnirdə “Vüqar Həşimovun dostları” komandası uğurla çıxış edib. Heyətində Qədir Huseynov, Rauf Məmmədov, Vüqar Rəsulov, Zaur Məmmədov, Nicat Abasov, Misrəddin İsgəndərovun yer aldığı komandamız dörddəbir finalda Serbiya, yarımfinalda Amerika şahmatçılarını məğlub edib. Finalda Ermənistan komandasına qalib gələn “Vüqar Həşimovun dostları” yarışda birinci yeri tutub. Turnir “Lichess.org” platforması vasitəsilə keçirilib.



## Uşu üzrə paytaxt turnirində güclülər müəyyənləşib

Binəqədi İdman Kompleksinin stadionunda uşunun çinda və sanda növləri üzrə Bakı turniri keçirilib. Yeniyetmələr, gənclər və kişilər arasında keçirilən yarışda Bakının idman klublarından 150 idmançı medallar uğrunda mübarizə aparıb.

Medal sayına görə “Arktika” komandası fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. “Fateh” klubu ikinci, “Mübarizlər” isə üçüncü pillədə qərarlaşıblar.

Qeyd edək ki, yarış Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Azərbaycan Uşu Federasiyasının birgə təşkilatçılığı ilə baş tutub.

## Teymur Rəcəbov onlayn şahmat akademiyası açdı

Azərbaycanlı qrossmeyster Teymur Rəcəbov öz onlayn şahmat akademiyasını yaradıb. O, akademiyaya tanınmış şahmat mütəxəssislərini cəlb edib. Onlayn akademiyanın müəllimləri T. Rəcəbovla yanaşı, tanınmış şahmat məşqçiləri Vladimir Çuçelov (Belçika) və İqor-Aleksandr Natafdır. Hər iki qrossmeyster uzun müddətdir T.Rəcəbovla işləyir və ona ən böyük beynəlxalq yarışlara hazırlaşmağa kömək edir.

T.Rəcəbov qeyd edir ki, layihəsinin missiyası hər evə şahmat gətirməkdir: “Missiyamız bütün dünyada şahmatı inkişaf etdirmək və hər evə gətirməkdir. Ən yüksək səviyyədə şahmat oynamaqda misilsiz təcrübəyə sahibik, məşqçilərimiz və qrossmeysterlərimiz Çuçelov və Nataf uzun illərdir dünyanın ən yaxşı şahmatçıları ilə gündəlik işləyirlər”.

Dərslər oktyabr ayının əvvəllərində başlayacaq.

## Güləş hakimləri üçün növbəti seminar

Azərbaycan Güləş Federasiyasının növbəti onlayn seminarı keçirilib. Sayca 5-ci dəfə təşkil olunan vebinarda Hakimlər Kollegiyasının sədri Qərib Əliyev əvvəlcə güləşdə risk hallarına aydınlıq gətirib. Daha sonra mövzuya uyğun videolarla epizodlar ətraflı izah edilib. Seminarın sonlarına doğru isə Azərbaycan çempionatının bəzi qarşılaşmalarındakı mübahisəli epizodlar müzakirə olunub və bu epizodlarda hakimlərin verdiyi qərarlar qiymətləndirilib.

Qeyd edək ki, müxtəlif vəziyyətlərin dəyərləndirilməsində birinci kateqoriyalı beynəlxalq dərəcəli hakim İntiqam Əliyev də yaxından iştirak edib və fikirlərini çatdırıb.



ADBTİA-90



*Dilqəm Quliyev, pedaqogika üzrə elmlər doktoru, professor*

# Bədən tərbiyəsi kadrları hazırlayan ilk tədris ocağı

***Öz ənənələri və uğurları ilə şöhrət qazanan, yarandığı vaxtdan xalqımızın xidmətində sədaqətlə dayanan, bədən tərbiyəsi və idman üzrə mütəxəssislər hazırlamaqda yeganə ali məktəb olan Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (AzDBTİA) 90 illik tarixi var. Əsası 1930-cu il noyabrın 8-də qoyulmuş və Cənubi Qafqazda ilk ali məktəb olan Zaqafqaziya Dövlət Bədən Tərbiyəsi İnstitutunun (ZDBTİ) açılışı M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının indiki binasında təntənəli şəkildə həyata keçirilib. Onun nizamnaməsi də o vaxt təsdiq edildi. Nizamnamədə institutun başlıca vəzifəsi bədən tərbiyəsi və idman müəllimləri, məşqçilər, kütləvi bədən tərbiyəsi və idman işləri üzrə təşkilatçılar, müalicəvi bədən tərbiyəsi metodistləri hazırlamaq idi. İlk illər institutda fakültələri şöbələr əvəz edirdi. Şöbələrə ümumi rəhbərlik isə tədris hissəsi tərəfindən aparılmış və bu üç il davam etmişdir.***

Görkəmli alim və maarif xadimləri A.M.Şuşinski, A.Qəniyev, S.Qasımov, E. Rəhimov, S.Hacıyev, N.Anserov, İ.Kravçuk, İ.Soldatov, O.Retelskiy, A.Şmidt, İ.Semenstiy, İ.Merkuris, A.Kyurdyukov, Z.Georqadze, B.Nuriyev və başqaları institutun ilk müəllimləri olmuşlar.

İnstitutun fəaliyyətinin yenidən qurulması və genişləndirilməsi ilə əlaqədar rektorun 19 yanvar 1932-ci il tarixli 4 saylı əmrinə əsasən 3 illik təhsil müddəti 4 illə əvəz olundu.

1933-cü ildə ZDBTİ-nin 39 (6 qız, 33 oğlan) nəfərdən ibarət ilk buraxılışı oldu. İlk məzunlar arasında Naxçıvan Muxtar Respublikasından gəlmiş Məsumə Fərzəliyeva da var idi.

1933-34-cü tədris ilində institutun Azərbaycan şöbəsi yaradıldı. Həmin il institutda 265 nəfər təhsil alırdı.

1936-cı ildən bu ali məktəb Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu kimi fəaliyyətini davam etdirmişdir. Bu dövrdə institutda ictimai elmlər, anatomiya, biologiya, kimya, gigiyena, fizika, fiziologiya, riyaziyyat, bədən tərbiyəsinin texnikası və metodikası kafedraları açılmışdır. İki dəfə 1938 və 1940-cı illərdə institut ÜİHİMŞ və ÜİLKGİ MK-nın keçici qırmızı bayrağını almışdır.

İkinci Dünya Müharibəsinin başlanğıcında Bədən Tərbiyəsi İnstitutunda təhsil alan tələbələrin sayının kəskin surətdə azalması ilə əlaqədar olaraq respublikada Azərbaycan KP MK və Xalq Komissarları Sovetinin 11 dekabr 1941-ci il 5157 saylı qərarı ilə Bədən Tərbiyəsi İnstitutu Azərbaycan Dövlət Universiteti ilə birləşdirildi. Müharibə dövründə institutun şəxsi heyətindən 314 nəfər cəbhəyə yola düşdü. Azərbaycan bədən tərbiyəsi və idman təşkilatlarının yetirmələri Böyük Vətən müharibəsində misilsiz rəşadət göstərdilər. Onların bir qismi isə - Z.Rzayeva, L.Baqriy, Q.Qəniyev, S.Əliyev, V.Litvinova, D.Qədirli və başqaları arxa cəbhədə müalicəvi bədən tərbiyəsi vasitəsilə yaralı əsgərləri yenidən həyata qaytarmaq üçün fədakarlıqla çalışırdılar.

1943-cü ildə respublikamızın idman həyatında böyük dönüş yarandı. İdman işlərində canlanma başlansa da, kadr hazırlığına olan ehtiyac lazımi səviyyədə təmin edilmirdi. Məhz buna görə Azərbaycan K(b)PMK və Xalq Komissarları Sovetinin 9 iyul 1943-cü il tarixli qətnaməsi və Azərbaycan SSR Xalq Komissarları Sovetinin 20 iyul 1943-cü il tarixli 53 saylı qərarı ilə bədən tərbiyəsi institutu öz keçmiş adını - Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bərqərar etdi.

1946-ci ildə institut C.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu adlandırıldı. 1946-1950-ci illərdə institutun rektoru vəzifəsində tibb elmlər namizədi dosent Səlim Qəni oğlu Əliyev çalışmışdır.

1950-1972-ci illərdə instituta dosent Ənvər Əbdülcabbar oğlu Babayev rəhbərlik etmişdir.

Müharibədən sonrakı illərdə Azərbaycanda bədən tərbiyəsi və idman hərəkatı yenidən vüsət aldı, idmançılarımız SSRİ çempionatlarında uğurla çıxış etdilər. Atlet Xandadaş Mədətov ilk dəfə uzununa tullanmaqda SSRİ rekordçusu oldu. Güləşçilər və boksçular ümumittifaq və beynəlxalq yarışlarda nailiyyətlər qazandılar. 1952-ci ildə SSRİ-nin iştirak etdiyi ilk XV Olimpiya Oyunlarında sərbəst güləşçi Rəşid Məmmədbəyov ölkəmizə ilk gümüş medalı gətirdi.

1950-1960-cı illərdə Azərbaycan idmanı daha da inkişaf etmiş, institutun müəllimləri, tələbə və müdavimləri SSRİ-də bir çox yarışların qalibi və mükafatçıları olmuşlar.

1960-cı illərdə bədən tərbiyəsi və idmanı əhali arasında yaymaq və gəncləri kütləvi şəkildə idmana cəlb etmək üçün bir neçə qərar qəbul edilmişdir. 1969-cu ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin respublikaya rəhbər seçildiyi ildən institut üçün yeni binanın tikintisinə başlanmış və 1971-ci ildə onun açılışı olmuşdur. İnstitut yeni binaya köçdükdən sonra əyani şöbəyə 350, qiyabi şöbəyə isə 100 nəfər tələbə qəbul edildi. Kafedraların sayı isə 20-yə çatdı.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutuna 1974-cü ildə Rafiq Rəcəbov rektor təyin edildi.

1980-1982-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutunda tədrisin yüksək səviyyədə təşkilində, ixtisaslı bədən tərbiyəsi və idman kadrlarının hazırlığında rektor Samur Novruzovun mühüm xidmətləri olmuşdur.

1987-2015-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman İnstitutuna professor Ağacan Qulam oğlu Abiyev rəhbərlik etmişdir. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında şöhrət muzeyi fəaliyyət göstərir. Muzeydə 1930-cu ildən Azərbaycanda bədən tərbiyəsi və idman hərəkatının inkişafı tarixini əks etdirən fotoşəkillərlə bəzədilmişdir.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən 23 dekabr 2015-ci ildə Fuad Hacı oğlu Hacıyev Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru təyin edilmişdir.

Akademiyada maddi-texniki təchizat sahəsində ən müasir texnologiyalardan istifadəyə üstünlük verilir.

ADBTİA Zaqafqaziyada ali bədən tərbiyəsi kadrları hazırlayan ilk tədris ocağı olmuşdur. 1936-cı ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu kimi yenidən qurulduqdan sonra onun həyatında yeni dövr başlanır və o vaxtdan ADBTİA-nın nəzdində kitabxana fəaliyyətə başlayır. Kitabxananın ümumi sahəsi 450 m2-dir (2015). Hal-hazırda kitabxananın fondunda cəmi 207,519 min kitab var (26.04.2019-cu il). Onlardan 50,363 dərslik və dərs vəsaitidir. 1100 avtoreferat, 388 magistr diplomlarının elektron kataloqu (kafedralar üzrə) yaradılmışdır. 745 bakalavr kafedralar üzrə kitab (skan) köçürmə, 249 magistr üzrə 50-yə yaxın ingilis dilində dərs və dərs vəsaitləri skan olunmuşdur.

Təkcə onu demək kifayətdir ki, son on il ərzində (2010-2020) idmançılarımız tərəfindən beynəlxalq yarışlarda - Avropa, dünya çempionatlarında və birinciliklərində 715 medal, o cümlədən 285 qızıl medal qazanılmış, 2500 idman normativləri (28 beynəlxalq dərəcəli idman ustası, 807 idman ustası, 738 idman ustalığına namizəd) yerinə yetirilmişdir.

Tədris prosesinin daha səmərəli təşkili üçün maddi-texniki bazanın gücləndirilməsi sahəsində genişmiqyaslı iş görülüb. Təmir və yenidənqurma işləri ümumilikdə üç min kvadratmetrdən çox sahəni əhatə edib. Təhsil ocağında elektron kitabxana və kitab fondu, inzibati otaqlar, kafedralar, tələbə mərkəzi, müasir kafe, tədris auditoriyaları və s. yenidən qurulub. Binanın zirzəmisində, birinci və ikinci mərtəbələrində təmir və yenidənqurma işləri artıq başa çatıb.

Akademiyanın binasında tədris üçün hər cür şərait yaradılıb, kommunikasiya xətləri, inventar yenilənib. Gənclər və İdman Nazirliyi tərəfindən təhsil ocağına 160 kompyuter hədiyyə edilib. Auditoriyalarda 8 proyektor, o cümlədən təqdimatların edilməsi üçün lazımi avadanlıq, interaktiv tədrisin təşkili üçün 18 monitor qoyulub.

Binaya əsas giriş və foye müasir dizaynda işlənib, fasad yeni mərmərlə üzlənib. Foyedə dünyanın ən müasir işıq və səs sistemlərindən istifadə edilib. Akademiyanın foyesində xalqımızın ümummilli lideri Heydər Əliyevin büstü qoyulub, şəhid idmançıların fotoşəkillərindən ibarət xatirə stendi yaradılıb.

Birinci mərtəbədə ümummilli lider Heydər Əliyevin adını daşıyan interaktiv muzey, tam funksional müasir elektron kitabxana, yeni oxu zalları, tələbə mərkəzi, görüş və təlim otaqları müəllim və tələbələrin istifadəsinə verilib. Burada, həmçinin müasir dizaynı və funksionallığı ilə seçilən konfrans zalı yaradılıb. Konfrans zalında elmi şuranın iclasları, konfrans və görüşlərin keçirilməsi nəzərdə tutulub. Tədris ocağının tibb məntəqəsi də təmir edilib və müvafiq avadanlıqla tam təmin olunub. Tələbə yeməkxanasında hər cür şərait yaradılıb.

Akademiyada yeni tədris laboratoriyaları və elektron kitabxananın əsaslı təmiri və yenidən qurulması, tədris proqramlarının təkmilləşdirilməsi, tədris bazasının gücləndirilməsi, distant və onlayn təhsilin, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, müvafiq xarici tədris müəssisələri ilə ikili tədrisin və qarşılıqlı proqramların təşkili, tələbə və professor-müəllim mübadiləsi, elmi-tədqiqat işlərinin aparılması, bu sahədə yeni ixtisaslaşmanın və müvafiq kafedraların yaradılması nəzərdə tutulub. Bütün bunlar Gənclər və İdman, Təhsil nazirliklərinin, Dövlət İmtahan Mərkəzinin dəstəyi ilə həyata keçirilir.

Təhsil elmin bazası olduğu kimi, elm də təhsilin hərəkətverici qüvvəsidir. Hazırda ADBTİA -da 478 (2020-ci il sentyabr ayına olan vəziyyətdə) mütəxəssis çalışır ki, onlardan da 48 nəfər fəlsəfə doktoru (onlardan 18 nəfəri bədən tərbiyəsi və idman sahəsi üzrədir), 9 nəfəri isə elmlər doktorudur (onlardan bir nəfəri bədən tərbiyəsi və idman ixtisası üzrə pedaqogika üzrə elmlər doktorudur. Ölkədə bədən tərbiyəsi və idman sahəsi üzrə elmi dərəcəsi olan alimlərin təxminən 60 faizi ADBTİA-da çalışırlar.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında 2017-ci ildən üç yeni magistr ixtisasları - İdman Tibbi və Reabilitasiya, İdman Menecmenti və İdman Jurnalistikası yaradılmışdır. Həmin ixtisaslar üzrə akademiyanın tədris proqramının hazırlanması üçün Köln Alman İdman Universiteti ilə birgə iş barədə ilkin razılıq əldə edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 dekabr 2019-cu il tarixli 508 nömrəli qərarı ilə, Akademiyada yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadr potensialını, zəruri maddi-texniki bazaya və müvafiq infrastruktura malik olduğunu nəzərə alaraq, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ilk dəfə olaraq "3245.01 - Bərpa təbabəti, idman təbabəti, müalicəvi bədən tərbiyəsi, kurortologiya və fizioterapiya" (tibb, biologiya, psixologiya üzrə) və "5806.01 - Fiziki tərbiyənin, idman təliminin nəzəriyyəsi və metodikası" (pedaqogika üzrə) ixtisasları üzrə fəlsəfə doktoru və elmlər doktoru proqramları üzrə doktoranturanın təsis edilməsi qərara alınmışdır.

Akademiyada son beş ildə 1571 elmi-metodik əsər çap edilib. Onlardan respublika səviyyəli elmi jurnallarda 981, xaricdə 18, indekslənən jurnallarda isə 8 məqalə çap olunub. Çap olunan monoqrafiyaların sayı 32, dərsliklərin sayı 8, dərs vəsaitlərinin sayı 32, proqram və metodik vəsaitlərin sayı 375-dir. Respublika səviyyəli nəşrlərdə 42, beynəlxalq səviyyəli nəşrlərdə isə 21 tezis çap olunub. Bundan əlavə Akademiya əməkdaşları tərəfindən xarici universitetlərdən olan alimlərlə birgə elmi tədqiqat işləri aparılıb və birgə məqalələr çap etdirilib.

"Azərbaycan dövlət təhsil siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Müasir dövrdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu siyasəti uğurla davam etdirir, təhsil müəssisələri qarşısında yeni hədəf və çağırışlar qoyur". Bu sözlər ölkəmizin aparıcı ali təhsil müəssisələrindən birinin, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının rektoru Fuad Hacıyevə məxsusdur. Və təbii ki, bu fikirlərin müəllifi qarşıya qoyulan hədəflərə yetişmək üçün ilk növbədə bilavasitə özünün rəhbərlik etdiyi ali təhsil müəssisəsində zəruri islahatların uğurla aparılmasına görə böyük məsuliyyət daşıyır. Akademiyada son vaxtlar həyata keçirilən islahatlar isə, həqiqətən də kifayət qədər yüksək nəticələrin inamla hədəfə alındığından xəbər verir.

Son dövrlərdə ölkəmizdə bütün sahələrdə baş verən dəyişikliklər 90 illik tarixə malik Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının da fəaliyyətini keyfiyyətcə yeni müstəviyə qaldırmışdır. Ümumiyyətlə, ADBTİA-nın rektoru Fuad Hacıyevin bu akademiyanın inkişafındakı fəaliyyəti də xüsusilə qeyd olunmalıdır. İnanırıq ki, 90 illiyini qeyd etməyə hazırlaşan Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası ölkəmizdə ali təhsil sisteminin flaqmanlarından biri kimi, bundan sonra da yüksək səviyyədə fəaliyyət göstərəcəkdir.



Maraqlıdır

# Qorxusuz qorxaqlar

Bir çoxlarımız kiçik yaşlarımızdan idmançıların gücünə, iradəsinə qibtə ilə yanaşmışıq. Onlar nümayiş etdirdikləri güclərı ilə milyonlarla azarkeşi özlərinə valeh etməyə nail olublar. Hər zaman güclü, cəld və məğlubedilməz görməyə öyrəşdiyimiz idmançıların zəif nöqtələrinin olması bizə inanılmaz gəlir. Lakin hər zaman qalib gördüklərimizin adi insan olduqları, onların da müəyyən qorxuları və qəribəlikləri olduqlarını unutmamalıyıq. Qəzetimizin budəfəki sayında oxucularımıza dünya idman ulduzlarının bilmədiyimiz qorxuları və qeyri-adi sınamaları barədə məlumat verəcəyik.

### Səliqə yoxsa sınama?

Belə ki, futbol ulduzu Devid Bekhem evindəki əşyaları rəngləri, ölçüləri və xüsusiyyətinə uyğun olaraq yerləşdirir.



Həmçinin futbolçu perfeksionistdir. Onun əşyaları mütləq şəkildə öz yerlərində olmalıdır. Oğlu Bruklin Bekhemin sözlərinə görə, atası buna xeyli vaxt sərf edir. Nəticədə isə mükəmməl səliqəyə nail olur. Bundan əlavə, ingilis futbolçunun soyuducusunda su və digər şüşələrin sayı cüt olmalıdır.

### Zərbədən deyil, uçmaqdan qorxan çempion

XVII Yay Olimpiya Oyunlarının qalibi, ağır çəkidə mütləq dünya çempionu Məhəmməd Əlinin bu siyahıya düşməsi qəribə görünür. Lakin məşhur boksçunun da özünəməxsus qorxuları olub. 18 yaşı yeni tamam olmuş



boksçunun 1960-cı ildə Romada keçirilən Olimpiya Oyunlarında qalib gəlməsi, dünya boksunda maraqla qarşılandı. Maraqlısı odur ki, M.Əli qorxusuna qalib gəlməsəydi, qızıl medal əldə etməyəcək. Belə ki, həmin vaxt M.Əli Romaya uçmaqdan imtina etmişdi. Buna səbəb isə kiçik yaşlarından aerofobiyadan (uçmaq qorxusu) əziyyət çəkməsi idi. 1960-cı illərin əvvəllərində oyunlara hazırlıq müddətində Kaliforniyaya məşq etmək üçün uçmaq ona çox pis təsir etdi. Buna görə də, o yenidən təyyarəyə minməkdən imtina edirdi. Məhəmməd Əli Romaya təyyarədən başqa hansı nəqliyyat vasitəsilə getmək barədə maraqlanırdı. O, "Romaya gəmi ilə çatmaq olar? Yox? Bəlkə, qatar ilə getmək olar? O da olmaz? Bu zaman mən evdə qalıram". Boksçunu yola gətirmək üçün onun məşqçisi Co Martini, "Luivill" mərkəzi parkının verandasında onunla bir saatdan artıq söhbət edib. Məşqçi M.Əliyə bunun nə qədər əhəmiyyətli olmasını izah etməyə çalışırdı. Uzun söhbətdən sonra Əli təslim oldu. Məlumata görə, idmançı Romaya uçuş müddətini yalnız dua edərək keçirib.

### Ən azı 80-90 yaşınadək yaşamaq arzusu

Portuqaliya millisinin üzvü və "Yuventus"un futbolçusu Kristianu Ronaldo isə heç kimdən deyil, yalnız özündən



qorxur. Daha doğrusu, öz ölümündən. Belə ki, idmançı ən azı 80-90 yaşınadək yaşamaq arzusundadır. Lakin istədiyi qədər deyil, tez öləcəyi onu sözün əsl mənasında qorxuya salır. Ailəsinə həsr edəcək vaxtının qalmayacağını düşünən K.Ronaldo boş vaxtlarını ailəsi, övladları ilə keçirir. İdman karyerasını 40 yaşında bitirəcəyini planlaşdıran biri üçün 90 il yaşamaq istəyi heç də təəccüblü deyil.

### Dovşandan qorxan

Amerikalı tennisçi Endi Roddik isə nadir və qeyri-adi qorxusu ilə seçilib. Qəribə olsa da, idmançı dovşanlardan qorxduğunu deyib. O, hətta xristianların Pasxa bayramının simvolu olan dovşandan belə çəkinir. Belə ki, "Saint-Regis" hotelində səhər yeməyi yeyərkən zala daxil olan dovşan geyimli insanın ondan qəti şəkildə uzaq gəzməsini tələb edib. İdmançının uzunqulaqlı şirin heyvanlardan qorxması, yad bir insanın onun evinə bəd xəbərlər gətirməsi ilə bağlı olduğu deyilir. Əsl dəhşət isə Endi Roddik üçün 2002-ci ildə "Deyvis" kubokunun şərəfinə təşkil olunan tədbir olub. Təşkilatçılar zala adi balaca dovşanların gətirilməsini insanlara pozitiv əhval-ruhiyyə bəxş edəcəyini düşünmüşdülər. Həqiqətən də, insanlar balaca şirin dovşanlardan zövq aldılar.



Təbii ki, E.Roddik bu siyahıda yox idi. Təşkilatçıların bu addımı onun üçün əsl sınaq oldu.

### "Onlar məni caynaqları ilə zədələmək istəyirlər"

Basketbolçu Zak Rendolf kimi ucaboylu olmaq, bəlkə də bir çoxlarının arzusudur. Təxminən 2.06 sm boya, 113 kq çəkiyə sahib olan idmançı nədən

*Qorxu təhlükədə deyil, o, bizim içimizdədir.*

*Stendal*




qorxa bilər? Sən demə o pişiklərdən həddindən artıq qorxurmuş. "Özümdən asılı olmayaraq, dəhşətli dərəcədə pişiklərdən qorxuram. Mən onları görəndə artıq nə düşündüklərini bilirəm. Mənə elə gəlir ki, onlar məni caynaqları ilə zədələmək istəyirlər" , - deyə müsahibələrinin birində o, qeyd etmişdi.

### Zirvələri fəth edib, yüksəklikdən qorxan pilot

Formula 1 yarışlarının iştirakçılarını sürəti sevən, heçnədən qorxusu olmayan insanlar kimi tanıyırıq. Amma onların da bir çoxları kimi qorxuları mövcuddur. Formula 1 yarışlarının ikiqat




dünya çempionu Fernando Alonsonu da bu siyahıya daxil etmək olar. Sürət və çılğınlığı sevən pilot aerofobiya (uçuşdan qorxma) və akrofobiyadan (yüksəklikdən qorxma) əziyyət çəkir. "Hər dəfə təyyarə silkələnəndə, pilot nəsə elan edəndə və ya nə baş verdiyini anlamayanda, ağlıma pis fikirlər gəlir. Ən dəhşətlisi isə dənizin üzərindən uçmaqdır. Hətta bir dəfə təyyarə qəzasından sonra Atlantik okeanında üzdüyümü təsəvvür etmişdim", - deyə o, qeyd etmişdi.

### Qorxur ki, qulyabani gələr

İngiltərəli futbolçu Ueyn Runinin qəribəliyi isə uşaq vaxtlarında formalaşıb. Kiçik vaxtlarında qulyabanilərdən qorxduğu üçün o, yatanda işıqları yandırmaqla yanaşı, həm də televizor və tozsoranı işə salırdı. U.Runi böyüdükcə




qulyabanilərin olmasına inanmasa da, onun bu inancı gələcək həyatına da təsirsiz ötüşməyib. Hətta idmançı səfər zamanı otaqda tək gecələməli olursa, ona yuxuya getməkdə yalnız fen səsi kömək edir. Zaman keçməsinə baxmayaraq, futbolçunun bu xüsusiyyəti hələ də özünü göstərir.

*Türkay Niftəliyeva*

# Formula 1

### "Alfa Romeo" Kimi Raykkonenlə əməkdaşlığı davam etdirmək istəyir

"Alfa Romeo"nun baş direktoru Frederik Vasser Kimi Raykkoneni 2021-ci il mövsümündə komandada saxlamaq istədiyini bildirib. O, "Ferrari"də bir neçə gənc pilotun olduğunu, ilk növbədə K.Raykkonenə ümid etdiklərini bildirib. F.Vasser əvvəlcə pilotun planlarını bilmək və daha sonra digər variantlara baxmaq istədiklərini də qeyd edib: "Bütün tərəflər qarşılıqlı əməkdaşlıqda maraqlıdırlarsa, onu davam etdirmək olar. Kimi Raykkonen kimi təcrübəli birini tapa bilmərəm. Bu onun üstünlüyüdür".

Sonuncu yürüşdə, Toskana Qran-Prisində K.Raykkonen 9-cu yeri tutub.

### "Panthera" Formula 1-dən imtina etməyəcək

Artıq Formula 1-də yarışmaq istəyən hər hansı bir yeni komanda 200 milyon dollar ödəməlidir. Razılıq sazişinə görə bu məbləğin mövcud 10 komanda arasında bölüşdürüləcəyi nəzərdə tutulub. Bu qaydanın tətbiqi 2021-ci ildə çempionatda debüt etməyi planlaşdırdığını elan edən "Panthera"




komandasının perspektivlərini xeyli çətinləşdirib. Buna baxmayaraq, "Panthera"nın qurucularından biri olan Bencamin Dyurend komandanın Formula 1-də iştirak etmək planlarından imtina etmədiyini, lakin çempionatda mümkün debütü 2022-ci ilə təxirə saldığını söyləyib.

### "Hamilton heç vaxt mənim üçün planetin ən yaxşısı olmayacaq"

"Ferrari"yə böyük ümidlərlə gətirilsə də, bu komandanın heyətində çempion ola bilməyən Sebastyan Fettelin "Aston Martin"də necə çıxış edəcəyi maraq doğurur. "Ferrari"də Luis Hamiltonun dominantlıq etdiyinə şahidlik edən almaniyalı pilot böyük ehtimalla "Aston Martin"də də eyni tamaşanı izləyəcək. Mövsümün sonunda "Aston Martin"ə keçəcək Sebastyan Fettel "Sky Sport İtalia" nəşrinə geniş müsahibə verib. Almaniyalı pilot Luis Hamiltonun çempionluq sayında Mixael Şumaxerə çatacağına münasibət bildirib: "Luisin belə asanlıqla çempionluqları sıraladığına görə üzülürəm. Amma o bu səviyyəyə yüksəlməsinə görə öz üzərində çox çalışıb. Hamilton layiqli şəkildə bu uğurları qazanıb. Bütün bunlara baxmayaraq, Luis heç vaxt mənim üçün planetin ən yaxşısı olmayacaq. Mən həmişə birinci yerdə Mixael Şumaxeri görəcəyəm". Fettel "Ferrari"dəki uğursuzluğundan da danışıb: "Ferrari" ilə çempion olacağıma ümid edirdim. Biz çempionluğa yaxınlaşmışdıq, amma bu, məqsədə çatmağa kifayət etmədi. Təəssüf ki, heç nə alınmadı. Doğrusu, "Mercedes"ə paxıllıq edirəm. Halbuki, "Ferrari" daha yaxşı çıxış edə bilərdi. İstənilən halda, dərinə getmək istəmirəm".

# Ümumdünya Sülh Günü turnirlə qeyd olunub

Xüsusi Olimpiya Komitəsinin təşkilatçılığı ilə 21 sentyabr - Ümumdünya Sülh Gününə həsr olunmuş oğlanlar arasında futbol turniri keçirilib. Şağan Olimpiya İdman Kompleksinin ərazisində açıq havada keçirilən yarışda xüsusi, yardımçı internatlar, sosial



müəssisə və inklüziv orta məktəblərin məzunlarından təşkil olunan komandalar iştirak ediblər. Turnirdə ümumilikdə, 36 komandanın tərkibində 300-dən çox idmançı mübarizə aparıb.

Yarışın yekunlarına görə fərqlənən komandalar kubok və medallarla mükafatlandırılıblar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin dəstəyi ilə keçirilən turnir 2021-ci ilin beynəlxalq yarışlarına hazırlıq xarakteri daşıyır.

# FUTBOL

## Avropa Liqasında pley-offun püşkü atıldı




UEFA Avropa Liqasında pley-off mərhələsinin püşkatma mərasimi keçirilib. İsveçrənin Nyon şəhərində təşkil olunan püşkatmada III təsnifat mərhələsinin 35 cütü və həmin raunddan azad olan 7 komanda iştirak edib. Onlar pley-offun 21 cütünü müəyyənləşdirib. Bunlardan səkkizi Çempionlar yolunda, on üçü Əsas yolda mübarizə aparacaq. Püşkatmada Azərbaycan çempionu "Qarabağ"ın da potensial rəqibi müəyyənləşib. Ağdam təmsilçisi "Qarabağ" "Legiya" (Polşa) - "Drita" (Kosovo) cütünün qalibi ilə qarşılaşacaq.

Qonşu Türkiyəni təmsil edən "Qalatasaray", "Beşiktaş" və "Alanyaspor"un da III təsnifat mərhələsini keçəcəyi halda üz-üzə gələ biləcəyi komandalar bilinib. "Beşiktaş" əgər mərhələ adlayarsa, qrupa vəsiqə uğrunda İtaliya nəhəngi "Milan"la qarşılaşa bilər. "Neftçi"ni mübarizədən kənarlaşdıran "Qalatasaray" isə "Hayduk" səddini də keçəcəyi təqdirdə "Villem II" (Niderland) - "Reyncers" (Şotlandiya) cütünün qalibinə rəqib olacaq. "Alanyaspor" isə Norveçdə "Rusenborq"u yenə bilsə, İstanbulda "Mura" (Sloveniya) - PSV (Niderland) cütünün qalibi ilə görüşəcək.

Qeyd edək ki, Avropa Liqasında III təsnifat mərhələsinin matçları sentyabrın 24-də, pley-off isə oktyabrın 1-də keçiriləcək.




### Avropa Liqası Pley-off

**Çempionlar yolu**

"Yanq Boyz" (İsveçrə) - "Tirana" (Albaniya)

"Dinamo" (Xorvatiya) - "Floriana" (Malta)/"Flora" (Estoniya)

"Dyurqorden" (İsveç)/ÇFR (Rumıniya) - "Kuopio" (Finlandiya)/"Suduva" (Litva)

"Ararat" (Ermənistan)/"Çelye" (Sloveniya) - "Srvena Zvezda" (Serbiya)

"Dinamo" (Brest, Belarus) - "Ludoqorets" (Bolqarıstan)

"Sarayevo" (Bosniya və Herseqovina)/"Buduçnost" (Monteneqro) - "Riqa" (Latviya)/"Seltik" (Şotlandiya)

"Legiya" (Polşa)/"Drita" (Kosovo) - **"Qarabağ" (Azərbaycan)**

"Şerif" (Moldova)/"Dundalk" (İrlandiya) - "Klasksvik" (Farer adaları)/"Dinamo" (Tbilisi, Gürcüstan)

**Əsas yol**

"Hapoel" (Beer-Şeva, İsrail)/"Motervell" (Şotlandiya) - "Viktoriya" (Çexiya)/"Sonderyusk" (Danimarka)

"Bazel" (İsveçrə)/"Anartosis" (Kipr) - MOİK (Bolqarıstan)/B-36 (Farer adaları)

"Beşiktaş" (Türkiyə)/"Rio Ave" (Portuqaliya) - "Milan" (İtaliya)/"Bodo Qlimt" (Norveç)

"Rusenborq" (Norveç)/"Alanyaspor" (Türkiyə) - "Mura" (Sloveniya)/PSV (Niderland)

"Sportinq" (Portuqaliya)/"Aberdin" (Şotlandiya) - LASK (Avstriya)/"Dunayska" (Slovakiya)

"Kopenhagen" (Danimarka)/"Pyast" (Polşa) - "Riyeka" (Xorvatiya)/"Kolos" (Ukrayna)

"Sankt-Qallen" (İsveç)/AEK (Yunanıstan) - "Volfsburq" (Almaniya)/"Desna" (Ukrayna)

"Şarlerua" (Belçika)/"Partizan" (Serbiya) - "Apollon" (Kipr)/"Lex" (Polşa)

"Malmö" (İsveç)/"Lokomotiva" (Xorvatiya) - "Qranada" (İspaniya)/"Lokomotiv" (Gürcüstan)

"Şkendiya" (Şimali Makedoniya)/ "Tottenhem" (İngiltərə) - "Rostov" (Rusiya)/"Makkabi" (Hayfa, İsrail)

"Styaua" (Rumıniya)/"Slovan" (Çexiya) - APOEL (Kipr)/"Zrinski" (Bosniya və Herseqovina)

"Standard" (Belçika)/"Voyvodina" (Serbiya) - "Fehervar" (Macarıstan)/"Reyms" (Fransa)

"Villem II" (Niderland)/"Reyncers" (Şotlandiya) - "Qalatasaray" (Türkiyə)/"Hayduk" (Xorvatiya)

## *Dünya futbolu neçə milyard dollar itirib?*



Dünya futbolunun koronavirus pandemiyasından qaynaqlanan maliyyə itkiləri 2020-ci ildə 14 milyard ABŞ dolları təşkil edəcək. Bu barədə "Reuters"ə COVID-19 iqtisadi fəsadlarının aradan qaldırılması üzrə FİFA Komitəsinin rəhbəri Olli Ren bildirib. Bu, ümumi klub futbol bazarının üçdə birini təşkil edir. O.Ren qiymətləndirmənin mövcud ssenariyə əsaslandığını, lakin pandemiyanın səngiyəcəyi təqdirdə məbləğin dəyişə biləcəyini söyləyib: "Koronavirus pandemiyası futbola çox zərbə vurdu, müxtəlif səviyyələrdə qarışıqlığa səbəb oldu. Bəzi peşəkar klublar çox ciddi çətinliklərlə üzləşib. Akademiyalar və aşağı divizion klubları ilə əlaqədar vəziyyət məni də çox narahat edir". FİFA rəsmisi Afrika və Asiyada futbolu inkişaf etdirmək üçün göstərilən səylərin qarşının alınması ilə bağlı təhlükənin olduğunu sözlərinə əlavə edib: "Vaksinin işlənməsi, hazırlanması və onun istifadəsi, pandemiyanın tam dayandırılması, tibbi və digər vasitələrin mövcudluğu kimi məsələlər həlledici olacaq. Bunlar hələlik məlum deyil. Biz hadisələrin ən pis inkişafını istisna edə bilmərik. İndi biz hazırkı ssenari əsasında işləyirik".

## Avropadan transfer xəbərləri

### İngiltərə

"Zenit"də oynayan serbiyalı müdafiəçi Branislav İvanoviçin yeni klubu müəyyənləşib. O, yeni mövsümdən etibarən "Vest Bromviç"də çıxış edəcək. Premyer Liqa təmsilçisi müdafiəçi ilə bir illik müqavilə imzalayıb.

* * *

"Arsenal" Pyer-Emerik Obameyanqla yeni müqavilə imzalayıb.

London təmsilçisi qabonlu hücumçu ilə sözləşmənin müddətini 2023-cü ilədək uzadıb. O, bu müddətdə ümumilikdə 60 milyon funt-sterlinqə yaxın gəlir əldə edəcək.

* * *

İngiltərənin "Aston Villa" klubu "Arsenal"ın qapıçısı Emiliano Martinesi transfer edib.

Argentinalı qapıçı ilə 4 illik müqavilə imzalanıb. Birmingem təmsilçisi bu keçid üçün "Arsenal"a 20 milyon funt-sterlinq ödəyib.

* * *

"Tottenhem" Madrid "Real"ının müdafiəçisi Serxio Reqilonla razılığa gəlib.

Madrid təmsilçisi bu keçid üçün London klubuna 30 milyon avro ödəyəcək. "Real"ın ispaniyalı futbolçunu 45 milyon avroya geri qaytarmaq hüququna malik olduğu bildirilib.

Madrid "Real"ının futbolçusu Qaret Beyl də əvvəlki klubu "Tottenhem"ə qayıdıb.




İngiltərə təmsilçisi uelsli hücumçunu 2020/2021 mövsümünün sonuna kimi icarəyə götürməklə bağlı Madrid klubu ilə razılığa gəlib. Onun "Tottenhem"də ilinə 17 milyon avro qazanacağı bildirilib. Bu məbləğin 50 faizinin "Real"ın ödəyəcəyi vurğulanıb.

* * *

"Bavariya"nın futbolçusu Tiaqo Alkantara "Liverpul"a keçib.




İngiltərə təmsilçisi bu transferlə bağlı Münhen klubuna 30 milyon avro ödəməyə razı olub. "Liverpul"un ispaniyalı yarımmüdafiəçi ilə müqavilənin şərtləri açıqlanmayıb.

* * *

"Çelsi" müdafiəçisi David Zappakostanı İtaliyanın "Cenoa" klubuna icarəyə verib. Futbolçu ilə bir illik müqavilə imzalanıb. Qeyd edək ki, London təmsilçisi 28 yaşlı italiyalı futbolçunu 2017-ci ildə "Torino"dan transfer etmişdi. O, ötən mövsümü icarə əsasında "Roma"da keçirib.

### İtaliya

"Barselona"dan ayrılan Arturo Vidal "İnter"ə keçib. 2+1illik müqaviləyə qol çəkən futbolçu üçün "İnter" klubu Kataloniya təmsilçisinə 1 milyon avro ödəyib. Qeyd edək ki, Arturo Vidal "Barselona"ya 2018-ci ildə "Bavariya"dan keçib.

* * *

"Roma"nın hücumçusu Edin Ceko "Yuventus"a keçib. Turin klubu 34 yaşlı hücumçu üçün 16 milyon avro təzminat ödəməklə iki illik razılıq əldə edib. Qeyd edək ki, "Roma" Cekonu 2016-cı ildə "Mançester Siti"dən 11 milyon avroya transfer edib.




"Roma" A Seriyasının digər təmsilçisi "Verona"dan alban müdafiəçi Maraş Kumbullanı heyətinə cəlb edib. Albaniya yığmasının üzvü olan 20 yaşlı mərkəz müdafiəçisi satınalma şərti ilə iki illik icarəyə götürülüb.

* * *

"Fənərbağça"nın futbolçusu Vedat Muriqi yeni mövsümdə "Latsio"nun formasını geyinəcək. 26 yaşlı kosovolu hücumçu ilə 5 illik müqavilə imzalanıb. Qeyd edək ki, 2019-cu ildən "Fənərbağça"da çıxış edən Kosovo millisinin üzvü ötən mövsüm ümumilikdə 36 oyunda 17 qol vurub.

### İspaniya

"Sevilya" "Sportinq"in sol cinah müdafiəçisi Markos Akunayini heyətə cəlb edib.

İspaniya təmsilçisi bu keçid üçün 10+2 milyon avro təzminat ödəyib. Argentina millisinin üzvü ilə 4 illik müqavilə imzalanıb.

### Fransa

PSJ "Roma"nın müdafiəçisi Alessandro Florenzini 2020/2021 mövsümünün sonuna kimi icarəyə götürüb. PSJ-nin 29 yaşlı oyunçu üçün 500 min avro icarə haqqı ödədiyi bildirilib. Klub mövsümün sonunda 9 milyon avro ödəyərək, italiyalı futbolçunu birdəfəlik almaq hüququna malikdir.

* * *

"Lion" heyətini yeni futbolçu ilə gücləndirib. Liqa 1 təmsilçisi "Hamburq"un qapıçısı Yulian Pollersbeki transfer edib. 26 yaşlı alman qolkiperlə 4 illik müqavilə imzalanıb.

"Lion" bu keçidə görə Bundesliqa klubuna 250 min avro ödəyəcək.

# Dünya idmanı



## Sergey Bubkanın rekordu yeniləndi

İsveçli atlet Arman Düplantis şüvüllə tullanmada yeni dünya rekordunu müəyyən edib. Romada keçirilən "Brilliant Liqa" mərhələsində atlet 6,15 metr - əvvəlki rekorddan bir santimetr yüksəyə tullanıb. Beləliklə, A.Düplantis ukraynalı Sergey Bubkanın 26 il əvvəl açıq meydançalarda qazandığı nailiyyətlərini yeniləyib. Xatırladaq ki, 1994-cü ildə ukraynalı idmançı 6,14 metrə atlamışdı.



2020-ci ilin fevral ayında Arman Düplantis Qlazqoda keçirilən beynəlxalq turnirdə (6,18 metr) qapalı məkanda dünya rekordu müəyyənləşdirib.

Qeyd edək ki, 20 yaşlı isveçli atlet 2019-cu ildə keçirilən dünya çempionatının gümüş mükafatçısıdır və onun aktivində 2018-ci ildə təşkil olunan Avropa birinciliyinin qızıl medalı var.

## Sosial məsafə 37 qolun buraxılmasına səbəb oldu

Almaniyada keçirilən futbol qarşılaşmasında unikal hesab qeydə alınıb. Bu barədə "Match TV" məlumat yayıb. "Ripdorf/Moltsen II" klubu "Holdenştedt"lə qarşılaşmada 0:37 hesabı ilə məğlub olub. Bu cür hesabın qeydə alınması məğlub komandanın sosial məsafə qaydasını gözləməsi səbəbi ilə ortaya çıxıb. Belə ki, qarşılaşmadan əvvəl "Holdenştedt"in oyunçularının koronavirusa yoluxmuş şəxslə əlaqədə olduğu bildirilib. "Ripdorf" qarşılaşmanın təxirə salınmasını istəsə də, bu tələb qəbul edilməyib. Əksinə klub meydana çıxmayacağı halda böyük məbləğdə cərimələnməklə təhdid edilib.



## Pandemiyaya görə daha bir turnir təxirə salındı

VTB Kreml Kuboku - 2020 tennis turniri təxirə salınıb. Bu barədə Rusiya Tennis Federasiyasından məlumat verilib. "Bu il turnir keçirilməyəcək. Buna səbəb isə pandemiyadır. Çox təəssüf ki, biz belə bir qərar vermək məcburiyyətində qaldıq.Lakin hadisələr bizdən güclüdür", - deyə bəyanatda bildirilib.

Xatırladaq ki, kişilər arasında yarışlar oktyabrın 17-25-də CSKA-nın manejində keçirilməli idi. Həmçinin 26 oktyabr -1 noyabr tarixlərində qadınlar arasında keçirilməsi gözlənilən yarışlar da təxirə salınıb.



*Üfüqi*

3. Formula 1 yarışlarında debüt etməyə hazırlaşan komanda. 4. Əsası 1924-cü ildə Parisdə qoyulan idman qurumu. 5. ...Olimpiya İdman Kompleksi. 8. Bilyardda növ. 9. Kipr klubu. 10. NBA-da Kolorado təmsilçisi. 13. Badminton ləvazimatı.

*Şaquli*

1. Yarış zamanı biatlonçuların su tələbatını ödəyən qurğu. 2. Əzələ kütləsinin inkişafı. 6. İdman gimnastikasında növ,...tullanma. 7. Rusiya hokkey liqasında çıxış edən komanda. 8. Amerikalılar futbolu belə adlandırırlar. 11. Argentina yığma komandasının keçmiş üzvü Xuan. 12. III Avropa Oyunlarına ev sahibliyi edəcək şəhər.

## Cinayətkar futbolçu

Braziliyanın "Nasional de Rolandiya" futbol klubunun yarımmüdafiəçisi Vinisius Korsini polis tərəfindən saxlanılıb. Futbolçu klubun direktoru, iş adamı Xose Danilson Alveş de Oliveyranı öldürməkdə təqsirləndirilir. 28 yaşlı V.Korsini isə törətdiyi əməli etiraf edib. Qeyd edək ki, 58 yaşlı dördüncü divizion klubunun rəhbəri şəhərin mərkəzində bıçaq xəsarətləri almışdı. Cinayətkar futbolçu da polis tərəfindən hadisə yerində saxlanılmışdı.


**olimpnews.az - sizin saytınız**





## Saxta arayışa görə diskvalifikasiya



Rusiyalı fiqurlu konkisürən Mariya Sotskova saxta tibbi arayış hazırlaması səbəbi ilə 10 il müddətində diskvalifikasiya edilib.

Qeyd edək ki, M.Sotskova bu ilin iyul ayında karyerasını bitirməsi barədə məlumat vermişdi. Fiqurlu konkisürən 2017-2018 illər mövsümündə Qran-pri yarışlarında gümüş madal qazanıb. İdmançının hesabında həmçinin Rusiya çempionatının gümüş və bürünc medalları var. 2018-ci ildə Koreya Respublikasının Pxençxan şəhərində keçirilən XXIII Qış Olimpiya Oyunlarında isə idmançı 8-ci yerdə qərarlaşmışdı.

Azərbaycan Cüdo Federasiyasının rəhbərliyi və kollektivi cüdo üzrə əməkdar məşqçi

**Vladimir Sidorenkonun**

vəfatından kədərləndiyini bildirirlər və mərhumun ailə üzvlərinə hüznlə başsağlığı verirlər.
Allah rəhmət eləsin!

Azərbaycan Voleybol Federasiyasının rəhbərliyi və kollektivi federasiyanın baş katibi Cəlil Cəfərova, anası

**Zeynəb xanımın**

vəfatından kədərləndiklərini bildirirlər və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!


Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.



*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-74-19